

**Azərbaycan xalqının zəngin mənəvi-mədəni irsi var. Bu möhtəşəm abidənin ən parlaq nümunələrindən biri muğam sənətidir. Məlumdur ki, bu bənzərsiz sənət bir tarixi inkişaf yolu keçib, dünya mədəni irsinin yüksək məqamlarında yer tutmaq imkanı qazanıb. O, artıq yarandığı və inkişaf etdiyi ölkənin deyil, dünya mədəniyyətinin nadir incisi hesab olunur...**

# Muğam sənətinin çiçəklənmə dövrü

Bir vaxtlar dünyanın bir çox sənət adamları muğamı dinlərkən təəccüblənirdilər. Elə hesab edirdilər ki, muğam ifaçıları etdikləri qeyri-adi zəngulələri xüsusi aparatlar vasitəsilə səsləndirirlər. Lakin Azərbaycan musiqisini-muğamını dinləyən Cənubi Amerika musiqi mütəxəssisləri bu haqda belə bir rəy yazdılar: Yalnız Azərbaycan xanəndələri boğazlarında öz təbii səslərini nümayiş etdirə bilirlər... Məhz bu keyfiyyətlərinə görə Azərbaycan muğamları YUNESKO-nun şifahi və qeyri-maddi irs siyahısına daxil edildi.

Azərbaycan xalqı tarixən acılı-şirinli günlərinin böyük bir hissəsini könlünün səs ahəngində yaşadıb. Muğamları sənət qalasına çevirib. Fərabinin, Seyid Əli Urməvinin və Əbdül Qadir Marağainin musiqi dünyasını-muğamı peşəkar ifaçıların: Məşədi İsinin, Hacı Hüsünün, Cabbar Qaryağdıoğlu, Keçəçioğlunun, Seyid, Xan Şuşinskilərin səsində yaşadıb...

Xalq şairi Bəxtiyar Vahabzadə dahi Azərbaycan bəstəkarı, muğamlardan istifadə edərək Şərqdə ilk dəfə olaraq opera yazan Üzeyir Hacıbəyovun xatirəsinə həsr etdiyi "Muğam"poemasında yazır:

***Mahnılar var ayaqları,***
***Muğamlarsa baş tərpədir.***

Muğam və xalq mahnıları milli sərvətimizdir. O, hər bir azərbaycanlı üçün müqəddəsdir. Məlumdur ki, dövrlə, zamanla bağlı olaraq tarixin müəyyən məqamlarında muğam və xalq mahnılarına qarşı bir laqeydlik baş qaldırmışdı. Xüsusilə də, ötən əsrin sonlarında gənclərin yüngül və bayağı musiqiyə meyl etməsi insanda ikrah yaradırdı.

Tarixən təkrar-təkrar muğamlarımız təqiblərlə, repressiyalarla üzləşib. Klassik irs onu inkar edən qrupların caynağından çox çətinliklə xilas edilib, böyük qəhrəmanlıqla bu günə çatdırılıb.

Bu gün də bu böyük mənəvi sərvəti gələcək nəsillərə çatdırmaq məsuliyyəti ən vacib və gərəkli problemlərdən biri idi... Məhz belə bir məqamda - 1995-ci ildə Azərbaycan Mədəniyyətinin Dostları Fondu yarandı. İlk addım Azərbaycan mədəniyyətini günbəgün dərinləşən böhrandan xilas etmək oldu. Belə ki, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyevanın " Azərbaycan muğamları" layihəsi əsasında aparılan islahatlar böyük hadisə oldu.

Bu xoşməramlı layihə mədəni həyatımızda daha çox muğam ifaçılarını razı saldı. 2005-ci ilin mart ayından Müslüm Maqomayev adına Dövlət Filarmoniyasında muğam axşamlarının təşkili bir ənənəyə çevrildi.

Eyni zamanda, muğam ensiklopediyası yaradıldı. "Qarabağ xanəndələri " albomu hazırlandı. Albomda 24 muğam ustadının: Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Xan Şuşinski, Bülbül və başqalarının ifası öz əksini tapdı.

Albom sözün həqiqi mənasında sənətsevərlər tərəfindən rəğbətlə qarşılandı. "Gülüstan" sarayında albomun təqdimetmə mərasimi oldu. Mərasimdə Milli Məclisin deputatı Mehriban xanım Əliyeva çıxış edib dedi:

- " Qarabağ xanəndələri" "Muğam irs" layihəsinin ilk albomudur. Hər biriniz bu albomu hədiyyə olaraq almısınız. Mən inanıram ki, bu albomla tanış olanda hiss etmisiniz ki, biz onu nə qədər məsuliyyətlə, digər tərəfdən də böyük məhəbbətlə hazırlamışıq. Heç də təsadüfi deyil ki, bizim ilk layihəmiz Qarabağ xanəndələrinə həsr olunmuşdur. Biz Qarabağ torpağının acısını, Azərbaycanın haqq səsini muğam vasitəsilə bütün dünyaya çatdırırıq".

Onu da qeyd edim ki, bunun ardınca Muğam Mərkəzinin yaradılması bu firkin məntiqi davamı oldu. Bununla əlaqədar ölkə başçısı İlham Əliyevin imzaladığı sərəncam xalq tərəfindən böyük razılıqla qarşılandı.

Dövlətin xalq musiqisinə, muğamlara göstərdiyi bu diqqət muğam ifaçılarını riqqətə gətirdi. 2008-ci ildə Muğam evinin təntənəli açılışı nəinki şəhər sakinlərini, hətta xarici qonaqları, YUNESKO nümayəndələrini belə təəccübləndirdi. Dünyada oxşarı olmayan Muğam evinin yüksək zövqlə, orijinal layihə ilə tikilməsi eyni zamanda dünya mədəniyyətinə yeni bir hədiyyə idi.

Bakının İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə yanaşı Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, eləcə də Mədəniyyət və Turizm, Təhsil nazirlikləri, Azərbaycan Bəstəkarlar İttifaqının təşkilatçılığı və dəstəyi ilə Bakıda ümumrespublika muğam müsabiqəsi keçirildi. Həmin gün dünyanın muğamsevərləri Bakıya toplaşdı.

İştirakçılar arasında on ölkənin muğam ifaçısı vardı... Festivalda hər bir xalqın klassik muğamları, eləcə də simfonik muğamlar ifa olundu. Muğam festivalı eyni zamanda Azərbaycan həqiqətlərinin nümayişinə çevirildı. YUNESKO-nun baş direktoru Koişiro Matsuura Bakı festivalını böyük hərarətlə alqışladı və dedi: -"Dünyanın heç bir ölkəsində Azərbaycandakı kimi dövlət mədəniyyətə bu səviyyədə qayğı göstərməmişdir".

**Əgər belə demək mümkünsə, doğrudan da, bu gün Azərbaycan mədəniyyəti özünün çiçəklənmə dövrünü yaşayır. Beynəlxalq Muğam festivalı Azərbaycan musiqisinin parlaq təntənəsi oldu...Deyirəm görəsən, Azərbaycan musiqisini dünyaya daha necə tanıtmaq olar?!**

**Bu sualın cavabını söz yox ki, yaxın gələcəkdə istedadlı gənc muğam ifaçılarımız milli musiqimizi dünyaya bugünkündən fərqli-daha möhtəşəm şəkildə çatdıranda vermiş olacaqlar...**

**Bu möhtəşəm mənəvi-mədəni irs və muğam sənəti haqqında fikrimi "Muğam" poemasından bir beytlə tamamlayıram.**

*Çox kitabları oxudum, zənn etdim, bəxtiyaram,*
*Mənə çox mətləbi ahəstəcə qandırdı muğam.*

**● Savalan FƏRƏCOV**